Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“07” mart 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 11

# AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ

# SIĞORTA FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ DEPARTAMENTİ HAQQINDA

# Ə S A S N A M Ə

BAKI - 2024

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Sığorta fəaliyyətinin tənzimlənməsi departamenti (bundan sonra - Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, İdarə Heyətinin və daxili komitələrin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə fəaliyyətini əlaqələndirir.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi sığorta fəaliyyətinin tənzimlənməsi çərçivəsinin formalaşdırılması və inkişaf etdirilməsi, bununla sığorta bazarının maliyyə sabitliyinin, habelə davamlı inkişafının təmin edilməsidir.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. sığorta bazarı üzrə tənzimləmə siyasətinin formalaşdırılması və müvafiq tənzimləmə çərçivəsinin davamlı inkişaf etdirilməsi;

3.2. sığortaçıların və təkrarsığortaçıların (bundan sonra – sığoratçı) maliyyə dayanıqlığına nəzarət prosesinin metodologiyasının, alət və üsullarının formalaşdırılması, inkişaf etdirilməsi, onların tətbiqinin dəstəklənməsi;

3.3. sığorta fəaliyyətinin qanunvericilik bazasının və tənzimləmə çərçivəsinin bazarın inkişafı baxımından tədqiqi və müvafiq siyasətin formalaşdırılması;

3.4. Departamentin büdcə layihəsinin hazırlanması və icrasının təmin edilməsi;

3.5. Departamentə aidiyyəti üzrə daxil olan müraciətlərə baxılması, məktub və sorğulara cavabların hazırlanması;

3.6. Departament rəhbərliyinin tapşırığı ilə səlahiyyətinə aid məsələlər üzrə arayışların və materialların hazırlanması;

3.7. rəhbərliyin tapşırığı ilə Departamentin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı şöbələrdən ibarətdir:

4.1.1. Tənzimləmə siyasəti şöbəsi;

4.1.2. Sığortaçılara prudensial nəzarətin metodologiyası şöbəsi.

4.2. Departamentin fəaliyyətinə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətlərini direktor müavini (olduqda) həyata keçirir, bu şərtlə ki, rəhbərlik tərəfindən direktor vəzifəsinin icrası şöbə rəislərindən birinə və ya digər şəxsə həvalə edilməsin.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən və ya İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin və vəzifədən azad olunurlar.

## 5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

**5.1. Tənzimləmə siyasəti şöbəsi:**

5.1.1. sığorta bazarının riskləri və inkişafı üzrə trendlərə, müəyyən edilmiş strateji hədəflərə uyğun olaraq tənzimləmə siyasətinin formalaşdırılması üzrə təkliflər hazırlayır;

5.1.2. sığorta bazarının tənzimlənməsi üzrə beynəlxalq təcrübədə istifadə olunan nəzəri və praktiki məsələləri öyrənir, beynəlxalq təcrübələrin və standartların tətbiqi üzrə təkliflər hazırlayır;

5.1.3. sığorta bazarı üzrə risklərinin inkişaf trendlərinin izlənilmə nəticələrinə uyğun olaraq sığorta ehtiyatlarının yaradılması, kapital adekvatlığı, sığorta və təkrarsığorta fəaliyyəti üzrə mövcud tənzimləmə çərçivəsini daimi əsasda qiymətləndirir, aşkar edilmiş tənzimləmə boşluqları əsasında müvafiq təkliflər hazırlayır;

5.1.4. sığorta bazarının maliyyə dayanıqlığının qiymətləndirilməsi ilə bağlı stress-testlərin tətbiqi prosesində iştirak edir;

5.1.5. sığorta bazarında aparılan nəzarət fəaliyyətlərinin nəticələrinə uyğun olaraq nəzarət proseslərinin, habelə nəzarət tədbirlərinin qanunvericilik bazasını Sığortaçılara prudensial nəzarətin metodologiyası şöbəsi ilə birlikdə daimi əsasda qiymətləndirir, aşkar edilmiş tənzimləmə boşluqları əsasında müvafiq təkliflər hazırlayır;

5.1.6. sığorta bazarını tənzimləyən qanunvericilik aktlarının hazırlanmasında iştirak edir;

5.1.7. sığorta bazarı üzrə peşəkar fəaliyyətin tənzimlənməsi və nəzarətinə dair normativ-metodoloji bazanın formalaşdırılması və mövcud bazanın təkmilləşdirilməsi üzrə normayaratma fəaliyyətini həyata keçirir;

5.1.8. müəyyən sığorta növləri üzrə sığorta qaydalarının formalaşdırılmasını və daimi təkmilləşdirilməsini həyata keçirir;

5.1.9. sığorta bazarının inkişaf strategiyasının formalaşdırılması üzrə təkliflər verir;

5.1.10. sığorta bazarı üzrə normativ-metodoloji sənədlərin tətbiq edilməsi ilə əlaqədar nəzarət subyektlərinə metodoloji dəstək göstərir;

5.1.11. Departamentə daxil olan sənədlərin, elmi tədqiqat işlərinin ekspertizasını aparır, onlara dair rəy və təkliflər hazırlayır;

5.1.12. səlahiyyətinə aid olan məsələlər üzrə xarici ölkələrlə və beynəlxalq təşkilatlarla faydalı əməkdaşlığa dair sənədlərin hazırlanmasında iştirak edir;

5.1.13. zəruri hallarda Departament direktorunun razılığı əsasında səlahiyyətlərinə aid olan məsələlər üzrə sığorta bazarının iştirakçılarını dəvət etməklə təlimlər, iclaslar və müşavirələr keçirir;

5.1.14. Departament rəhbərliyinin tapşırığı ilə Mərkəzi Bankın rəhbərliyi və struktur bölmələri üçün arayışlar və materiallar hazırlayır;

5.1.15. səlahiyyətlərinə aid məsələlərlə bağlı Departamentə daxil olan müraciətlərə baxır, sorğu və məktublara cavablar hazırlayır;

5.1.16. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.2 Sığortaçılara prudensial nəzarətin metodologiyası şöbəsi:**

5.2.1. sığortaçıların risk profilinin qiymətləndirilməsi üzrə metodoloji çərçivənin ümumi əsaslarının formalaşdırılması barədə təkliflər verir;

5.2.2. sığortaçıların biznes modeli, biznes strategiyası və onların həyata keçirilməsi üçün tətbiq etdikləri idarəetmə sisteminin təhlilinin metodoloji alətlərini inkişaf etdirir;

5.2.3. sığortaçıların əsas fəaliyyətlərinin müəyyən edilməsi və təhlilinin aparılması, habelə əsas fəaliyyətlərdən irəli gələn sığortaçının maliyyə dayanıqlığı üzrə məruz qaldığı risklərin aşkar edilməsi üçün metodoloji əsasları işləyir və daimi təkmilləşdirir;

5.2.4. sığortaçıların sığorta, bazar, kredit, likvidlik, əməliyyat, komplayens və digər risklərinin qiymətləndirilməsi üçün metodoloji alət və prosedurları işləyir, daimi

təkmilləşdirir;

5.2.5. sığortaçıların korporativ idarəetmə, daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin, o cümlədən ayrı-ayrı risk siyasətlərinin, risklərin idarə olunması üzrə nəzarət mexanizmlərinin qiymətləndirilməsinin metodoloji alət və prosedurlarını işləyir, daimi təkmilləşdirir;

5.2.6. sığortaçıların risk profilinin qiymətləndirilməsinin metodoloji əsaslarını işləyir və daimi təkmilləşdirir;

5.2.7. sığorta fəaliyyətinə prudensial nəzarəti həyata keçirən struktur bölmələrinə metodoloji tövsiyələr verir, müvafiq nəzarət alət və prosedurlarının daimi təkmilləşdirilməsi üçün müzakirələr aparır;

5.2.8. sığortaçıların nəzarət orqanına təqdim etdiyi prudensial hesabatlar üzrə hesabatlılıq sistemini təhlil edir, onun daimi inkişaf etdirilməsi üzrə təkliflər verir;

5.2.9. Departament rəhbərliyinin tapşırığı ilə Mərkəzi Bankın rəhbərliyi və struktur bölmələri üçün arayışlar və materiallar hazırlayır;

5.2.10. səlahiyyətlərinə aid məsələlərlə bağlı Departamentə daxil olan müraciətlərə baxır, sorğu və məktublara cavablar hazırlayır;

5.2.11. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏA

Bu Əsasnamə təsdiq edildiyi gündən qüvvəyə minir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**